*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (2) 2025*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:03.01.2025*
*Kabul tarihi |Accepted:14.04.2025*
*Yayın tarihi |Published:25.04.2025*

**Hüseyn Hüseynli**

*https://orcid.org/0000-0001-7954-0381*
*Doctor of Philosophy in History, Associate Professor, Baku State University, Department of New and Modern History of European and American Countries, Azerbaijan, huseyn.huseynli@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Hüseynli, H. (2025). Türkiyənin Gürcüstan Siyasətində Abxaziya Problemi. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (2), 1123-1135.

# Türkiyənin Gürcüstan Siyasətində Abxaziya Problemi

***Xülasə***

*Məqalədə Türkiyənin Gürcüstan siyasətində Abxaziya problemi, onun tarixi, siyasi və diplomatik aspektləri təhlil edilir. Araşdırmada Abxaziya münaqişəsinin kökləri, etnik gərginliklərin rolu və Sovet dövrünün siyasətlərinin təsiri nəzərdən keçirilir. Eyni zamanda, Gürcüstanla strateji tərəfdaşlıq, Abxaz diasporası və Rusiyanın geosiyasi təsiri Türkiyənin bu məsələyə yanaşmasını formalaşdıran əsas amillər kimi vurğulanılır. Ankara Gürcüstanın ərazi bütövlüyünü rəsmi olaraq tanısa da, daxili və regional faktorlar onun mövqeyinə təsir göstərmişdir. Araşdırmada Türkiyənin Gürcüstanla diplomatik əlaqələrini qorumaqla yanaşı, Abxaziya ilə tarixi və mədəni bağlılıqlarını necə tarazlaşdırmağa çalışdığı qeyd olunur. Nəticələr göstərir ki, Türkiyənin ehtiyatlı siyasəti və geosiyasi məhdudiyyətlər onun münaqişənin həllində fəal rol oynamasını çətinləşdirmiş, bu isə Abxaziyada Rusiyanın təsirinin artmasına səbəb olmuşdur.*

***Açar sözlər:*** *Türkiyə, Abxaziya, Gürcüstan, Rusiya, Mixeil Saakaşvili*

# The Abkhaz Problem in Turkey's Policy Towards Georgia

***Abstract***

*The article analyses the question of Abkhazia in Turkey's policy towards Georgia from historical, political and diplomatic aspects. The study examines the origins of the Abkhazia conflict, the role of ethnic*

BY NC
Creative Commons Licence

*tensions and the influence of Soviet-era policies. At the same time, the strategic partnership with Georgia, the Abkhaz Diaspora and Russia's geopolitical influence are highlighted as the main factors shaping Turkey's approach to the issue. Although Ankara officially recognises Georgia's territorial integrity, domestic and regional factors have influenced its position. The study notes how Turkey has tried to balance its historical and cultural ties with Abkhazia while maintaining diplomatic relations with Georgia. The results show that Turkey's cautious policy and geopolitical constraints make it difficult for it to play an active role in resolving the conflict, which in turn leads to increased Russian influence in Abkhazia.*

***Keywords:*** *Turkey, Abkhazia, Georgia, Russia, Mikheil Saakashvili*

## Giriş

Abxaziya Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan Cənubi Qafqaz regionunda yerləşən və qarışıq tarixi olan bölgədir. Cənubi Qafqazın qədim xalqlarından olan abxazlar tarix boyunca güclü imperiyaların təsiri altında olmuşdur. Abxaziya münaqişəsinin arxa planı və tarixi kökləri qeyd edilən imperiya dövrlərinin xüsusi şəkildə araşdırılması ilə dərk edilə bilər. Sovet elitası tərəfindən istirahət və əyləncə yeri kimi qəbul edilən Abxaziya İosif Stalin zamanında (1922-1953) SSRİ sərhədlərində yaşayan digər icmalar kimi, mədəniyyət və dil sahəsində müxtəlif assimilyasiya siyasətinə məruz qaldı. Abxaziyanın demoqrafik quruluşunu dəyişdirmək və bölgədəki abxaz mədəniyyətinin təsirini aradan qaldırmaq məqsədilə məskunlaşdırma siyasəti həyata keçirən Sovet rejimi abxazları Gürcüstan sərhədindən kənara köçməyə məcbur etdi. Gürcüstan Sovet Sosialist Respublikasının gürcü dilini ölkədə rəsmi dil olaraq elan etməsi nəticəsində Abxaziyanın qanunverici orqanı olan Abxaziya Ali Soveti 15 avqust 1990-cı ildə Abxaziyanın suverenliyini elan etdi. Hazırda da davam edən gürcü-abxaz münaqişəsinin təməli məhz Abxaziyanın suverenliyini elan etməsindən sonra atıldı. 8 aprel 1991-ci ildə Gürcüstanın müstəqilliyinin elan edildiyi dövrdə ölkə başçısı ifrat gürcü millətçisi Zviad Qamsaxurdiya idi. Gürcüstanda əsrlər boyu yaşayan etnik azlıqları "qonaq" kimi görən və "Gürcüstan gürcülər üçündür" kimi ayrı-seçkilik yaradan və şovinist siyasətə söykənən Qamsaxurdiya Abxaziya və Cənubi Osetiyanın muxtar statuslarını ləğv edərək bölgədə assimilyasiya siyasətinin həyata keçirilməsinə imkan verən yol xəritəsi müəyyənləşdirdi.

## 1. Abxaziyada Separatçılığın Güclənməsi və Gürcüstan Hökumətinin Siyasəti

Gürcüstan müstəqilliyini elan etdiyi dövrdə ölkədə xaos baş alıb gedirdi. Bir tərəfdən Qamsaxurdiya tərəfdarlarının, digər tərəfdən isə SSRİ-nin keçmiş xarici işlər naziri Eduard Şevardnadzenin tərəfdarları arasında vətəndaş müharibəsi ehtimalı çoxalırdı. Bu vəziyyətindən faydalanan Abxaziya, 23 iyul 1992-ci ildə müstəqilliyini elan etdi. Müstəqillik elanından dərhal

sonra, Abxaziyanı yenidən nəzarəti altına almaq və Gürcüstanın ərazi bütövlüyünü təmin etmək istəyən Tbilisi rəhbərliyi avqust ayında hərbi əməliyyatlara başladı. Əməliyyatlar 1993-cü ilin sentyabrına qədər davam etdi. Gürcüstan Silahlı Qüvvələri Qafqaz könüllü milislərin və rus əsgərlərinin dəstək verdiyi silahlı abxaz qüvvələri ilə toqquşdu. Abxazların xeyrinə nəticələnən toqquşmalardan sonra, müharibədən öncə Gürcüstan ordusunun abxazlara tətbiq etdiyi qeyri-insani davranışların bənzəri bu dəfə abxazlar tərəfindən gürcülərə qarşı həyata keçirildi. Belə ki, müharibədən əvvəl Abxaziya əhalisinin təxminən 45%-ni təşkil edən gürcülər zorla köçürülərək qaçqın vəziyyətinə düşdülər. Təkcə Abxaziyanın Qali rayonunda bəzi gürcülərin yaşayışına icazə verildi. Bu müharibədə yeddi mindən çox insan həlak oldu (Aydın, 2020). Gürcüstan və Abxaziya arasında davam edən münaqişənin gürcülərin əleyhinə dəyişməsi 1 dekabr 1993-cü ildə atəşkəsin imzalanması ilə nəticələndi. Atəşkəsin imzalanması ilə Gürcüstanın nəzarətində qalan yeganə abxaz ərazisi azsaylı etnik icmalarından biri olan svanların sıx yaşadığı Kodori dərəsi oldu. Müharibə abxazların xeyrinə nəticələnənsə də, 1993-cü ildə Rusiya tərəfindən yaradılan Müstəqil Dövlətlər Birliyinə Gürcüstanın qatılması və rus hərbi bazalarının öz ərazilərində yerləşməsini qəbul etməsilə vəziyyət dəyişdi. Bu üzvlük, Gürcüstan-Rusiya münasibətlərinin normallaşması üçün yaxşı fürsət oldu. Gürcüstan Rusiya təsir sahəsinə daxil olduqdan sonra, Rusiya Prezidenti Boris Yeltsinin dövründə (1991-1999) iki ölkə arasında iqtisadi və hərbi əməkdaşlıq inkişaf etdi.

Qamsaxurdiyanın qısamüddətli prezidentlik dövrü hərbi müdaxilə ilə başa çatdıqdan sonra hakimiyyətə gələn Şevardnadze 1997-ci ilə qədər Gürcüstanda mövcud olan siyasi qeyri-sabitliyi aradan qaldırmaq üçün çoxşaxəli işlər gördü. Buna baxmayaraq respublikada dövlət hakimiyyətinin ölkə miqyasında həyata keçirilməsi sahəsində uğur əldə edə bilmədi. 2001-ci ilə qədər Kaxetiya bölgəsindəki Pankisi dərəsində dövlət hakimiyyətinin təmin olunmasında çətinliklər yarandı və həmin bölgə beynəlxalq cinayətkar təşkilatların bazasına çevrildi (Aqneşka Zielonka, David Pipiya, Dimitri Avaliani. Pankisi dərəsində həyəcan – Suriyadakı müharibənin əks-sədası Gürcüstana qədər çatıb, 2025). Mərkəzi hakimiyyətin bərpa edilmədiyi yer təkcə Pankisi dərəsi deyildi, Acarıstan və Cavaxetiya bölgələrində də oxşar uğursuzluqlar məhz Şevardnadzenin dövründə qeydə alındı. Lakin bu uğursuzluqlar, 1990-cı illərin ikinci yarısından etibarən gürcü-abxaz münaqişəsinin son həlli üçün siyasi və diplomatik addımların atılmasının qarşısını ala bilmədi. Abxaz hakim dairələri 1996-cı ilin fevral ayında dövlətin iki bərabər hüquqi tərəfi olma prinsipi əsasında hazırladıqları layihə protokolunu 26 sentyabr 1997-ci ildə müzakirəyə çıxardılar. Gürcü-abxaz problemlərini həll etmək məqsədilə aparılan danışıqlar nəticəsində dövlətin birliyinin

təmin olunması qarşıya məqsəd qoyuldu. Xarici siyasət, beynəlxalq iqtisadiyyat, milli müdafiə, sərhəd və gömrük idarəçiliyi, ətraf mühitin qorunması və etnik azlıqların hüquqları istiqamətində abxaz və gürcü hakim dairələrinin ortaq idarəçiliyi nəzərdə tutuldu. Hüquqi çərçivədə davamlı və dayanıqlı razılaşmanın əldə edilməsi hədəflənsə də, Birləşmiş Millətlər Təşkilatının da daxil olduğu Cenevrə görüşlərində müsbət nəticə əldə edilmədi. Dayanıqlı həll variantı əldə edilmədikdən sonra, 1999-cu ilin oktyabr ayında Abxaziya tam müstəqilliyini elan etdi. Müstəqilliyin bəyan edilməsinə baxmayaraq, beynəlxalq müstəvidə tanınmadı, lakin Rusiya Federasiyası Abxaziyanı hərbi və iqtisadi baxımdan dəstəkləməyə davam etdi.

## 2. Türkiyə və Rusiyanın Abxaziya Münaqişəsinə Münasibəti; Gürcüstanla əlaqələr

1990-cı illərdə Gürcüstanda baş verən etnik toqquşmalar Türkiyədə də narahatlıq yaratdı və abxazların vəziyyəti siyasi gündəmin önünə keçdi. Türkiyənin abxazlarla tarixi və mədəni əlaqələri mövcuddur. Dünyada yaşayan abxazların ümumi sayı barədə dəqiq məlumat tapmaq çətin olsa da, 1989-cu ildə keçirilmiş SSRİ-nin sonuncu əhali siyahıyaalınmasına əsasən, Abxaziya Muxtar Respublikasının əhalisi 525 min 61 nəfər olub. Türkiyə hər nə qədər bütün diplomatik vasitələrdə Abxaziyanın Gürcüstanın ərazi vahidi olduğunu bəyan etsə də, Türkiyədə yaşayan və sayı yarım milyona çatan abxaz-adıgey mənşəli əhalinin fəaliyyətləri, Abxaziya ilə münasibətlərin fərqli inkişafı və ora müxtəlif yardımların göstərilməsi iki ölkə arasında açıq şəkildə dilə gətirilməsə, narahatlığa səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, abxaz diasporasının ən sıx yerləşdiyi bölgələr Türkiyənin Sakarya və Düzce şəhərləridir. Bu bölgələrdə abxaz diasporası mədəni irsini qorumağa və öz ənənələrini yaşatmağa xüsusi diqqət yetirir. Abxaz icmasının sıx məskunlaşması nəticəsində burada fəaliyyət göstərən bir sıra mədəniyyət dərnəkləri, cəmiyyətlər və təşkilatlar, həm Türkiyə-Abxaziya əlaqələrinin inkişafına, həm də diasporanın mədəni kimliyinin güclənməsinə töhfə verir. 1993-cü ildə Rusiyanın dəstəyilə Abxaziya silahlı qüvvələri Gürcüstan üzərində qələbə qazandıqdan sonra Türkiyə, regionda sabitliyin bərpası üçün diplomatik çıxış yolları axtarmağa başladı. Bir tərəfdən Gürcüstanın strateji əhəmiyyəti, digər tərəfdən abxaz mənşəli vətəndaşların tələbləri arasında qalan Türkiyə, 1996-cı ilə qədər bu məsələdə mövqeyini aydın şəkildə ifadə edə bilmədi. Lakin 1990-cı illərin ikinci yarısında Gürcüstanla əlaqələrin inkişafı fonunda bu ölkənin ərazi bütövlüyü məsələsində daha qəti və sərt bir mövqe tutdu. 1997-ci ildə Tbilisiyə səfər edən Baş Qərargah nümayəndə heyətinə Abxaziyada Rusiyanın təsirini azaltmaq məqsədilə Qara dəniz ölkələrinin iştirak edəcəyi "Qara Dəniz Sülhməramlı Taboru"nun yaradılması və bu çərçivədə Türkiyə hərbçilərinin Abxaziyada xidmət etməsi təklif edildi. Hətta bu istiqamətdə gürcü və abxaz heyətinin 1999-cu ilin iyununda İstanbulda görüşünü təşkil etdi. Lakin sonradan ciddi irəliləyiş

əldə olunmadı. Abxaziya ilə birbaşa əlaqə qurmaqdan çəkinən Türkiyə, abxazlar tərəfindən təklif edilən Türkiyə ilə Abxaziya arasında birbaşa bərə xəttinin yaradılması təklifini Gürcüstan hökumətinin etirazı səbəbindən qəbul etmədi. Bu da Türkiyədə yaşayan abxaz əhalidə narazılıq yaratdı və Türkiyəni bir növ Gürcüstanın Abxaziyanı təcrid etmək siyasətinə dolayı yolla dəstək verməsi kimi xarakterizə edildi. Türkiyənin bu mövqeyi ölkə daxilindəki abxaz əhalisi ilə gərginliklərə, Rusiyanın Abxaziyada təsir qurmasının qarşısını ala bilməməsinə və Abxaziya müstəqilliyini elan etdikdə tamamilə prosesdən kənarda qalmasına səbəb oldu. Bu məqamda Türkiyə, Cənubi Qafqazda Rusiyaya məğlub olduğunu anlayaraq, Abxaziya məsələsinə müdaxilə etmək üçün yeni yollar axtarışına keçdi.

Hadisələrin inkişafında isə Rusiya tamamilə fərqli mövqe tutdu. Məsələn, 12 illik fasilədən sonra Suxumi-Soçi-Moskva sərnişin qatar xətti 25 dekabr 2002-ci ildə yenidən istifadəyə verildi. 2002-ci ilin sonlarından etibarən Rusiya Federasiyasının Adler qəsəbəsi ilə Suxumi arasında kiçik miqyaslı qatar xətti fəaliyyət göstərməyə başladı (Gültekin-Punsmann, Argun & Tarba, 2009). Dəmir yolunun təməli 90-cı illərdə qoyulsa da, uzun müddət fəaliyyətsiz qaldığından istismara yararsız halda idi. Bu baxımdan dəmir yolunun infrastrukturunun təmiri dövlətə məxsus Rusiya Dəmir Yolu Şirkəti tərəfindən həyata keçirildi. 2004-cü ilin sentyabrında Moskva və Suxumi arasındakı dəmir yolu xətti, Adler dayanacağından 200 sərnişini Moskvaya çatdıraraq yenidən xidmətə başladı. Dəmir yolu xəttinin yenidən fəaliyyətə başlaması Rusiya Xarici İşlər Nazirliyi tərəfindən Gürcüstan və Ermənistan da daxil olmaqla bütün Cənubi Qafqaz üçün faydalı hadisə kimi təqdim edildi. Açılış günü böyük bir izdiham 120 kilometrlik dəmir yolu xəttinin istifadəyə verilməsini qeyd etmək üçün dəmir yolu vağzalında toplaşdı. Gürcü-abxaz müharibəsinin başladığı 14 avqust 1992-ci ildən bəri ilk dəfə Soçidən Suxumiyə gələn şəhərətrafı qatarı qarşılamaq üçün 25 dekabrda uşaqlara çiçək və bayraq gətirmələri, ənənəvi çörək və duz təqdim etmələri üçün məktəblərdən icazə də verildi. Rusiyanın illərdir dəyişməyən siyasi oyunları davam edirdi. Bu hadisə Suxumidə böyük məmnuniyyətlə qarşılandı, hətta iş o yerə gəldi ki, Suxumidə fəaliyyət göstərən "Okno" tədqiqat şirkəti tərəfindən keçirilən rəy sorğusunda Rusiya Federasiyası ilə qatar xəttinin yenidən fəaliyyətə başlaması "2002-ci ilin ən vacib hadisəsi" seçildi. Bu hadisəni "parlamentin spikeri" Nuqzar Aşubanın sevincli ifadəsi ilə şərh etmək düzgün olardı: *"Abxaziyanın iqtisadi təcridi bizi elə vəziyyətdə qoydu ki, şəhərətrafı qatarın səfərlərə başlaması bizə sanki, səmaya bir növ kosmik gəmi buraxmışıq kimi sevinc bəxş etdi"* (Khashig, 17 January 2003). XXI əsrin əvvəllərində Gürcüstanda siyasi vəziyyət tamamilə dəyişdi. 1995-ci ildən Gürcüstanın dövlət başçısı olan Şevardnadzeyə qarşı 2003-cü ilin noyabr ayında "qərbyönümlü" üsyan baş verdi.

2003-cü il 2 noyabr tarixində keçirilən seçkilərdə saxtakarlıq edildiyi iddiası ilə başlayan etirazlar, Mixeil Saakaşvili və tərəfdarlarının əllərində güllərlə Gürcüstan parlamentinə girərək iclası dayandırması ilə davam etdi və "Gül inqilabı" adlanan radikal dəyişiklik prosesi ilə nəticələndi. Gürcüstanın ilk prezidenti Qamsaxurdiyanın bir zamanlar söylədiyi "düşmənlərimizə güllə deyil, gül atacağıq" sözlərini xatırlayan xalq, parlament binasına rəngarəng güllər atdığı üçün Gürcüstandakı bu xalq hərəkatına "Gül İnqilabı" adı (Köktaş, 2015). 2000-ci illərin əvvəllərində keçmiş SSRİ və Yuqoslaviya coğrafiyasında baş verən ictimai hərəkatlara əsaslanan rəngli inqilabların nümunəsi kimi göstərilən "Gül inqilabı"ndan sonra, 2004-cü ilin yanvarında Gürcüstanda növbədənkənar seçkilər keçirildi. İnqilabın qərbyönümlü siyasətçisi Saakaşvilinin liderlik etdiyi Vahid Milli Hərəkat ümumi səslərin 96 faizini toplayaraq seçkilərin açıq fərqlə qalibi oldu və hakimiyyətə gəldi. Saakaşvili hökuməti bir tərəfdən iqtisadi liberallaşma və dövlət qurumlarının institusionallaşması üçün müxtəlif islahatlar həyata keçirdi, digər tərəfdən isə mərkəzi idarəetməni gücləndirmək məqsədilə ölkə konstitusiyasından irəli gələn siyasi kurs formalaşdırdı. Acarıstan Muxtar Vilayətini mərkəzi idarəetməyə birləşdirən Saakaşvili hökuməti, bənzər konstitusiya siyasətini Abxaziya və Cənubi Osetiya üçün də tətbiq etməyə başladı.

Saakaşvilinin Acarıstan böhranı zamanı sərgilədiyi hücum mövqeyi və daha sonra bu bölgədə birliyi təmin etmək məqsədilə xristian motivlərindən intensiv şəkildə istifadə etməsi Türkiyəni narahat etdi. Xarici İşlər Nazirliyində Saakaşviliyə qarşı mövcud olan inamsızlığın təməli məhz həmin dövrlərdə yarandı. Saakaşvili 20 may 2004-cü ildə Türkiyə səfəri zamanı Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin həyati əhəmiyyət kəsb etdiyini və prioritet olduğunu bildirərək, iki ölkə arasındakı münasibətlərin əhəmiyyətli olduğunu qeyd etdi. Bundan əlavə, "Abxaziyada 70000, Türkiyədə isə 300000" abxazın yaşadığını və problemi həll etmək üçün körpü yaradaraq Türkiyənin vasitəçilik edə biləcəyini ifadə etdi (Oran, 2013). Lakin sonradan bu istiqamətdə heç bir addım atmadı. Türkiyənin, abxazları Rusiyanın nəzarətinə buraxmaq yerinə, əlaqə quraraq problemin həllində irəliləyiş əldə etmək təklifləri Saakaşvili tərəfindən hər dəfə rədd edildi. Türkiyə bu məsələdə Gürcüstana təzyiq göstərsə də, Gürcüstanın suverenliyinə hörmət əlaməti olaraq abxazlarla birbaşa əlaqə qurma yoluna getmədi.

Gürcüstanın Abxaziyanı təcrid etmək siyasəti yeni uğursuzluqlara gətirib çıxardı. Bu da abxazların kütləvi şəkildə Rusiya pasportu almaları və əhəmiyyətli dərəcədə Rusiyanın nəzarətinə keçməsinə səbəb oldu. Saakaşvilinin unitar dövlət qurmaq yolunda attığı səhv addımlar Gürcüstanın siyasi xəritəsinin dəyişməsilə nəticələndi. Abxaziya Rusiyanın dəstəyi ilə 2008-ci ilin yayında birtərəfli qaydada müstəqilliyini elan etdikdə artıq iş-işdən keçmişdi və Cənubi

Qafqazdakı tarazlıq pozulmuşdu. Abxaz vətəndaşlarından da tələb gəlməsinə baxmayaraq, Türkiyə Gürcüstana bu və ya bənzər məsələlərdə niyə kifayət qədər təzyiq etmədi? Bu suala cavab vermək o qədər də asan deyil, lakin bu cür qənaətə gəlmək olar: 2007-ci ilin qışındakı Rusiya-Gürcüstan böhranından sonra, Rusiya Gürcüstana gedən təbii qazı kəsdiyi vaxt çətin vəziyyətə düşən Saakaşvili Türkiyəyə gəldi. Türkiyə, bir tərəfdən Abxaziyanın təcridi səbəbindən getdikcə Rusiyaya meylləndiyindən narahat olaraq məsələyə müdaxilə etmək istəyirdi, digər tərəfdən isə Saakaşvili hakimiyyətə gəldikdən sonra yavaşlayan Qars-Tbilisi dəmiryolu layihəsini tez bir vaxtda həyata keçirmək istəyirdi. Ölkəsi qış vaxtı çətin vəziyyətdə olan Saakaşvili 2007-ci ilin martında istifadəyə verilməli olan Bakı-Tbilisi-Ərzurum qaz xəttindən Türkiyənin payına düşəcək ilk qaz transferini Gürcüstana yönləndirmək üçün 16-17 martda Türkiyəyə gəldi. Fürsəti qaçırmaq istəməyən Türkiyə hökuməti bu iki məsələdə Saakaşviliyə təzyiq etdi. Lakin Gürcüstanı açıq-aşkar himayə edən ABŞ, Türkiyəyə Gürcüstana təzyiq göstərməməsini tövsiyə etdi. Saakaşvili də Türkiyədən istədiklərini alıb qarşılığında heç nə vermədən Gürcüstana qayıtdı.

Türkiyə ən azından Abxaziya probleminə müdaxilə edərək gürcü və abxaz xalqları arasında sülh missiyasını icra etmək üçün hərəkətə keçdi. 20-21 noyabr 2007-ci ildə Tbilisiyə səfər edən Prezident Abdullah Gülü müşayiət edən Xarici İşlər Nazirinin müavini Ünal Çeviköz, səfərin ardından Gürcüstanın hökumətinin də razılığı ilə Abxaziyanın paytaxtı Suxumiyə getdi. Bir neçə ay sonra daha aşağı səviyyəli xarici işlər üzrə bürokratlar yenidən Suxumiyə getsələr də, görüşlərdə heç bir irəliləyiş əldə olunmadı və proses ləngidi. Türkiyənin bütün diplomatik kanalları işə salmasına baxmayaraq Rusiyanın 2008-ci ilin avqustunda Gürcüstana müdaxiləsi regionda mövcud olan qeyri-sabitliyi daha da artırdı. Cənubi Osetiyada davam edən müharibəni fürsətə çevirən abxazlar, Abxaziya sərhədləri daxilində Gürcüstan hökumətinin hakimiyyəti altında qalan yeganə yaşayış məntəqəsi Kodori Vadisini ələ keçirdilər. Gürcüstan üçün ağır məğlubiyyətlə nəticələnən müharibədən sonra Rusiya Federasiyası ilə Abxaziya arasındakı siyasi və iqtisadi əlaqələr daha da möhkəmləndi. Müharibənin məsuliyyətini Abxaziya və Cənubi Osetiya muxtariyyətinə "düşmən" münasibət bəsləyən Saakaşvili hökumətinə aid edən Rusiya Qərb dövlətlərinin Kosovonun müstəqilliyini tanımalarına cavab addımı atdı. Beləliklə, Abxaziyanı 26 avqust 2008-ci ildə müstəqil dövlət olaraq rəsmən tanıdı (Hüseynli, 2024). 2008-ci il müharibəsindən sonra siyasi, iqtisadi və hərbi baxımdan Rusiyadan daha da asılı hala düşən "Abxaziya hökuməti", həm Aleksandr Ankvab (2011-2014), həm də Raul Hacimbanın (2014-2020) rəhbərliyi altında Rusiyayönümlü siyasəti gücləndirdi və Gürcüstanla bütün əlaqələri kəsdi. Türkiyə hökuməti və Xarici İşlər Nazirliyi 2008-ci ilin avqustunda baş vermiş müharibədən sonra Cənubi Qafqazda yeni

düzənin formalaşmağa başladığını dərk edirdi. Buna görə də Ankara Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasını önə sürdü. Hətta Nazirlər Kabinetində Qafqaz məsələləri üzrə müşavir də təyin olundu. Türkiyə, Gürcüstan ilə münasibətlərinə zərər vermədən və Avropa-Atlantik dünyası ilə ziddiyyətə düşmədən Abxaziya ilə humanitar və ticarət əlaqələrini genişləndirməyə çalışırdı. Çox çətin axtarış prosesi olsa da, Türkiyənin Abxaziya ilə yeni siyasi yanaşma istiqamətinə yönəldiyini müşahidə etmək olar. Abxaz diasporası, ümumiyyətlə, Türkiyənin rəsmi Gürcüstan yanaşmasına tənqidi münasibət göstərir. Ən böyük diaspora təşkilatı olan Qafqaz Dərnəkləri Federasiyası 5 yanvar 2009-cu ildə prezident Abdullah Güllə keçirilən görüşdə Türkiyə-Abxaziya arasında gəmi və təyyarə reyslərinin başladılması tələbi ilə çıxış etdi. Türkiyə isə bu məsələdə ümumiyyətlə ehtiyyatlı mövqe göstərir. Türk diplomatlar Gürcüstan rəsmiləri ilə Trabzon və Suxumi arasında bərə xəttinin yenidən açılması məsələsi üzərində işləyirlər. Gürcüstan sahil mühafizə xidmətinin türk gəmilərini ələ keçirmə risikinin olduğu şəraitdə, Türkiyənin birtərəfli olaraq bərə xəttini yenidən fəaliyyətə başlatmaq imkanı olduqca çətindir. Bərə xəttinin hüquqi və ya ən azından rəsmi status alması vacibdir. Gürcüstan və Türkiyə rəsmiləri bərələrin Suxumiyə getməzdən əvvəl Batumidə gömrük nəzarətindən keçməsi variantı üzərində işləyirlər. Türkiyə, Gürcüstan rəsmilərini inandırmağa çalışır ki, bərə xəttinin açılması Gürcüstan-Abxaziya münaqişəsinin həlli istiqamətində qarşılıqlı etimad yarada bilər. Bu, abxazların cənuba, yəni Türkiyəyə yönəlməyə başlamaları üçün həqiqətən də etimad yaradıcı addım ola bilər. Türkiyə-Gürcüstan sərhədi tamamilə humanitar və ticarət baxımından qarşılıqlı təsirə mailkdir. Soyuq müharibə dövründə "təhlükəsizlik" səbəbindən bağlanan Sarp sərhəd qapısı, indi əməkdaşlığın inkişaf etdiyi yerdir. Keçmişdə qapalı olan Qoqno qəsəbəsi indi türk və gürcü iş ortaqlarının tez-tez görüşdükləri məkandır. Avropa təcrübəsini də nəzərə alan türk və gürcü rəsmilər, iki tərəfi ayıran sərhədləri "aradan qaldırmağa" çalışırlar. Hazırda Gürcüstan, Türkiyə vətəndaşları üçün viza rejimindən imtina etmiş yeganə keçmiş Sovet ölkəsidir. "TAV" adlı türk şirkəti tərəfindən inşa edilən və idarə olunan Batumi hava limanı Türkiyə Hava Yollarının İstanbul, Hopa və Artvin arasında daxili uçuşları üçün istifadə olunur. Türkiyə vətəndaşları İstanbul-Batumi uçuşlarında pasportsuz səyahət edə bilirlər. Sarp sərhəd keçidi də vahid gömrük məntəqəsi ilə İsveçrə modeli əsasında fəaliyyət göstərir. Sərhədləri aşmaq məqsədilə həyata keçirilən bu təşəbbüs, iki ölkə rəsmilərinə bərə xəttini açmaq mövzusunda yol göstərici ola bilər.

2010-2012-ci illərdə Acarıstanda yaşayan 25 min türkə Gürcüstan vətəndaşlığının verilməsi Rusiyanın narazılığına səbəb oldu və bunu "Türklərin Batumi üzərində nəzarəti ələ keçirməsi" kimi qiymətləndirdilər. Moskva Dövlət Universitetinin Türkiyə üzrə professoru Vladimir Avatkov bu

barədə deyirdi: *“Türkiyənin Gürcüstanda həm iqtisadi, həm də sosial baxımdan əhəmiyyətinin artıraraq Rusiyaynı qabaqlayıb və regionda müsbət imic qazanır”* (Hasanov, 2013, s. 401). 2014-cü ilin oktyabr ayında Rusiyanın Abxaziya ilə ittifaq və strateji tərəfdaşlıq sazişi imzaladığını nəzərə aldıqda, Türkiyənin Gürcüstana bu məsələdə verdiyi diplomatik dəstəyin əhəmiyyəti daha aydın başa düşülür. Bu saziş, Rusiyanın Abxaziya üzərində təsirini artırmağa və bölgədəki mövqeyini möhkəmləndirməyə yönəlmiş ciddi addım idi. Belə vəziyyətdə Türkiyənin Gürcüstana dəstək verməsi, yalnız ikitərəfli münasibətlərin qorunması baxımından deyil, həm də regionda geosiyasi tarazlığın təmin edilməsi üçün vacib idi. 2014-cü ilin noyabr ayında TBMM sədri Cəmil Çiçək Tbilisiyə səfər etdi, dekabr ayında isə Gürcüstanın xarici işlər naziri Tamar Beruçasvili Türkiyəyə gələrək xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşdü. Görüşdən sonra keçirilən birgə mətbuat konfransında Çavuşoğlu, xüsusilə Türkiyənin Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımadığını vurğuladı və Gürcüstanın Avropa-Atlantik institutları ilə inteqrasiyasının əhəmiyyətinə diqqət çəkdi. Bu baxımdan Türkiyə ilə Abxaziya arasında 2015-ci ildən sonra demək olar ki, birbaşa əlaqə mövcud olmayıb. Gürcüstan hökuməti xüsusilə regionda özünə müttəfiq bildiyi Azərbaycan və Türkiyənin Abxaziya və Cənubi Osetiyanın reinteqrasiyasına töhfə verəcəyini düşünür. 2018-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin səkkizinci üçtərəfli görüşündə qəbul edilən Tbilisi Bəyannaməsində, Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edildi. Bu sənəddə, Abxaziya və Cənubi Osetiya münaqişələrinin beynəlxalq hüququn prinsipləri əsasında sülh yolu ilə həllinin vacibliyi vurğulandı.

### 3. COVID 19 Pandemiyası Dövründə Gürcü-Abxaz Yaxınlaşması və Türkiyənin Rolu

Ümumilikdə, 2015-2020-ci illərdə Gürcüstan və Abxaziya arasında münasibətlərdə ciddi dəyişikliklər baş vermədi və tərəflər arasında əsaslı dialoq qurulmadı. Münaqişənin həlli istiqamətində beynəlxalq səylərə baxmayaraq, tərəflər arasında etimadın artırılması və birbaşa dialoq qurulması sahəsində əhəmiyyətli irəliləyiş əldə olunmadı. COVID 19 pandemiyasının ilk günlərində, 22 mart 2020-ci il tarixində keçirilən “seçki”lərdən sonra vəzifəyə gələn Aslan Bjaniya rəhbərliyindəki Abxaziya “hökuməti” Suxumi və Tbilisi arasındakı təcrid vəziyyətinin yumşaldılması və əlaqələrin artırılması üçün yeni axtarışlar apardığını göstərən bəyanatlar verməyə başladı. Hələ, pandemiyanın əvvəllərində xəstəlik halları barədə məlumatın qeydə alınması və elan edilməsi, müalicə və zəruri tibbi yardım materiallarının təmin edilməsi kimi məsələlərdə çatışmazlıq yaşayan Abxaziya “hökuməti” 27 mart 2020-ci ildən etibarən pandemiyanın yayılma sürətini nəzarət altına almaq üçün sərt tədbirlər tətbiq etdi (De Waal, 2020). Abxaziya büdcəsinin

təxminən yarısını Rusiya yardımları təşkil edirdi. Pandemiyanın təsirinin güclü şəkildə hiss edildiyi Abxaziyada iqtisadi cəhətdən müxtəlif çətinliklər yarandı. 2012-ci ildə Rusiyadan 300 milyon ABŞ dolları maliyyə yardımı alan Abxaziya, 2020-ci ildə 140 milyon ABŞ dolları maliyyə yardımını gecikməli olaraq əldə edə bildi. Rusiya maliyyə dəstəyinin azalması bir tərəfdən büdcə böhranını ortaya çıxardı, digər tərəfdən isə "dövlət" məmurlarının aylarca maaş almadan xidmət göstərmələrinə səbəb oldu. Abxaziyanın "milli" gəlirinin üçdə birini təşkil edən turizm gəlirlərinin də pandemiya dövründə kəsilməsi, iqtisadi problemlərin həllində daxili dinamika inkişafını çətinləşdirdi. Pandemiya ilə mübarizə çərçivəsində 27 mart 2020-ci ildə "sərhədlərini" bağlayan Abxaziya "hökuməti", rus turistlərin gəlişini təmin etmək üçün 1 avqustda "sərhədləri" yenidən açdı, lakin bu da günlük xəstəlik halları və ölənlərin sayının sürətlə artması ilə nəticələndi (Kucera, 2020). Abxaziyada çalışan tibb işçilərinin 80 faizindən çoxunun 60 yaş və yuxarı şəxslərdən ibarət olması və yerli səhiyyə sistemindəki texniki çatışmazlıqlar pandemiya ilə mübarizəni çətinləşdirdi. Rusiya tərəfindən təmin edilən tibbi yardım materialları isə kifayət etmədi. Bu prosesdə meydana gələn bəzi qarşılıqlı əlaqələr, gürcü-abxaz münasibətlərinin gələcəyi baxımından yeni səhifənin açılmasına imkan yaratdı. Gürcüstan Prezidenti Salome Zurabişvili və digər gürcü rəsmiləri, pandemiya ilə mübarizə prosesində Abxaziyaya dəstək məqsədilə BMT qurumlarının fəal iştirakını xahiş edərək, Gürcüstan üzərindən bölgəyə çatdırılacaq yardımların gürcü hakimiyyəti tərəfindən əngəllənməyəcəyini bildirdi. Bu çağırışlar beynəlxalq platformalarda qarşılıq tapdı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin sponsorluğu, Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə əhəmiyyətli miqdarda tibbi yardım Gürcüstan üzərindən Abxaziyaya çatdırıldı. Bundan başqa kovidə yoluxan abxazların Gürcüstan xəstəxanalarında müalicə alması üçün prosedurları asanlaşdıran Gürcüstan hökuməti, Abxaziya "sərhədinə" yaxın olan Ruxi şəhərində yeni xəstəxana açaraq abxazların gürcü səhiyyə xidmətlərindən yararlanması üçün önəmli addımlar atdı. Pandemiya ilə mübarizədə əsas mərhələlərdən biri olan müalicə proseslərində də gürcü-abxaz qarşılıqlı əlaqəsi təmin olundu. Abxaziya və Gürcüstanın Kutaisi şəhərində çalışan gürcü həkimlərin müalicə ilə bağlı məsləhətləşmələri üçün BMT İnkişaf Proqramının sponsorluğu ilə onlayn platformalar yaradıldı (Hauer, 2020). Abxaz və gürcü rəsmiləri arasında pandemiya dövründə baş verən və qarşılıqlı etimadın formalaşmasına kömək edən qarşılıqlı əlaqələr Gürcüstan cəmiyyəti tərəfindən də dəstəkləndi. Qafqaz Araşdırmaları Mərkəzi tərəfindən 2020-ci ildə aparılan araşdırmaya görə, gürcü xalqının 90 faizi pandemiya ilə mübarizə çərçivəsində Abxaziyaya edilən yardımların davam etməsini dəstəkləmişdir. Bu yardımlar Abxaziyanın yeni "lideri" Bjaneya tərəfindən də müsbət qarşılandı. Faktiki ayrılıqdan sonra uzun müddət keçdiyini

və dərhal normallaşmanın, həmçinin tərəflər arasındakı münaqişənin qısa müddətdə aradan qaldırılmasının real görünmədiyini qeyd edən Bjaneya, regional təhlükəsizlikdən enerji istehsalına, nəqliyyatdan pandemiya ilə mübarizəyə qədər bir çox sahədə Abxaziya ilə Gürcüstanın "dinc qonşular" kimi əməkdaşlıq etməsinin məqsədəuyğun olduğunu vurğuladı. Sözügedən sahələrdə əməkdaşlığın təmin edilməsi üçün iki cəmiyyət arasında qarşılıqlı etimad olduqca vacib idi. Konfederativ idarəetmənin təmin edəcəyi imkan və qabiliyyətlər vasitəsilə qeyd olunan qarşılıqlı etimad mühitinin yaranması və gürcü-abxaz münaqişəsinin davamlı həllinə nail olunması ehtimal oluna bilər. Bəs konfederativ idarəetmə nədir, bunu Gürcüstandakı etnik münaqişələrə şamil etmək mümkündür? Konfederasiya, dövlətlər arasında xüsusi razılaşma əsasında yaradılan və üzv dövlətlərin öz suverenliyini qoruyub saxladığı birlikdir. Konfederativ quruluşda üzv dövlətlər, ümumi maraqlara xidmət edən müəyyən məsələlərdə (xarici siyasət, müdafiə, ticarət və s.) əməkdaşlıq edirlər, lakin hər bir dövlət öz daxili məsələlərində tam müstəqil qalır. Konfederasiyalar adətən zəif mərkəzi hökumətə malik olur və üzv dövlətlərdən biri istənilən vaxt konfederasiyadan çıxmaq hüququna sahib olur. Gürcüstan hakimiyyət orqanları və Abxaziya səlahiyyətli nümayəndələri tərəfindən konfederativ yanaşma çərçivəsində həyata keçiriləcək əməkdaşlıq və inteqrasiya yönümlü fəaliyyətlər iki xalq arasında düşmənçiliyin və inamsızlığın tədricən aradan qaldırılmasına kömək edə bilər (Kolçak & Ercan, 2021). Lakin, Gürcü-abxaz münasibətlərində birdən-birə normallaşması və iki cəmiyyət arasındakı münaqişənin qısa zamanda həlli asan deyil. Abxazların separatçı fəaliyyəti nəticəsində dərin kök salmış düşmənçiliyin qəfildən yox olması ehtimalı mümükün deyil. Gürcüstanın gələcəkdə konfederativ dövlət statusu qəbul etməsi aşağıda qeyd olunan səbəblərə görə qeyri-mümkün görünür:

*Baxmayaraq ki, pandemiya dövründə gürcü-abxaz münasibətlərində irəliləyiş müşahidə olundu, lakin hər iki tərəf arasında uzunmüddətli etnik və siyasi gərginlik olduğundan konfederasiya ideyasına dair qarşılıqlı etimadsızlıq yüksəkdir;

*Abxaziya özünü müstəqil dövlət hesab etdiyi üçün konfederasiya modeli qəbul edilsə belə, tərəflər arasında status məsələsinin həlli çətin görünür;

*Rusiya kimi regional güclərin Abxaziyadakı təsiri də bu məsələdə mühüm maneə yaradır. Gürcüstanın qərbyönümlü siyasəti ilə Abxaziyanın Rusiyayönümlü siyasəti arasında ciddi fərqlər mövcuddur.

## Nəticə

Abxaziyaya tarixi perspektivdən baxıldıqda, onun daim Rusiya ilə eyni tərəfdə olacağını demək çətindir. Rusiyanın daxilində də Abxaziya və Cənubi Osetiya kimi münaqişələrə malik

bölgələr mövcuddur. Əgər bu quruluşlar Rusiya Federasiyasından ayrılmaq üçün hərəkətə keçsə onda Rusiya üçün ciddi çətinliklər yaranacaq. 11 sentyabr hadisələrindən sonra Rusiya Çeçenistan problemi ilə bağlı Qərbin dəstəyini qazana bildi, lakin 2008-ci ilin avqust müharibəsindən sonrakı prosesdə eyni dəstəyi ala bilmədi. Bu cəhətdən Türkiyənin Gürcüstana dəstəyini davam etdirməsi olduqca vacibdir. Abxaziyanı tamamilə Rusiyanın təsirinə buraxmayan siyasət izlədiyi təqdirdə Türkiyənin Cənubi Qafqaz siyasəti daha uğurlu ola bilər. Rusiya abxazlarsız Abxaziya qurmağa çalışır və bölgədə demoqrafik quruluşu dəyişdirmək üçün əlindən gələni edir. Gürcüstanla münasibətləri zədələmədən Abxaziya ilə əlaqələrin davam etdirilməsi gələcəkdə bu məsələnin müzakirəsində Türkiyəyə üstün mövqe qazandıra bilər.

**Ədəbiyyat**

Aqneşka Zielonka, David Pipiya, Dimitri Avaliani. Pankisi dərəsində həyəcan – Suriyadakı müharibənin əks-sədası Gürcüstana qədər çatıb. (2025). https://jam-news.net/az

Aydın, M. (2020). Abazalar. İçinde *Türkiye Diyanet Vakfi İslam Ansiklopedisi* (C. Ek. 1, s. 1-3). Türkiye Diyanet Vakfı Yayınları.

De Waal, T. (2020). Can the Coronavirus Reset the Abkhazia Conflict?. *Carnegie Europe*.

Gültekin-Punsmann, Burcu, Argun Başkan ve Kemal Tarba. (2009). *Karadeniz'in Bütünleşmesi İçin Abhazya*. ORSAM ve TEPAV Rapor No: 8, Aralık.

Hasanov, E. (2013). *Türkiye'nin Kafkasya Politikası 2012 /Türk Dış Politikası Yıllığı 2012*. (s. 385-408). SETA Yayınları.

Hauer, N. (2020). *Abkhazia, Georgia and COVID: An Opportunity from Crisis.* Middle East Institute. https://www.mei.edu/publications/abkhazia-georgia-and-covid-opportunity-crisis

Hüseynli, H. (2024). İkinci Qarabağ Müharibəsi Zamanı Türkiyənin Cənubi Qafqaz Siyasəti. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(5), 3586-3594.

Khashig, I. 17 January 2003 'Abkhaz train provokes Georgian anger', Institute *for* War *and* Peace Reporting. Caucasus Report Service, no 162.

Köktaş, N. A. (2015). Saakaşvili dönemi Gürcistan: iç ve dış politika üzerine bir değerlendirme. *Ardahan Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi*, *1*(2), 95-110.

Kolçak, H., & Ercan, O. (2021). Konfederal Birlik: Gürcü-Abhaz İhtilafinin Çözümü İçin Yeni Anayasal Düzen. *Karadeniz Araştırmaları Enstitüsü Dergisi*, *7*(13), 377-408.

Kucera, J. (2020). Abkhazia Calls for Volunteers to Help with COVID Outbreak. Eurasianet,https://eurasianet.org/abkhazia-calls-for-volunteers-to-help-with-covid-outbreak

Oran, B. (2013). *Türk Dış Politikası. Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar 2001-2012*. (C. 3). İletişim.